# Elektron xidmətlərin göstərilməsi diqqət mərkəzində saxlanılır

(Əvvəli 5-ci səhifədə).

Açılmış elektron poçt ünvanları rayon icra hakimiyyətinin rəsmi saytındakı aparatın struktur bölməsində öz əksini tapmışdır. 2016-cı il ərzində vətəndaşlar tərəfindən rayon icra hakimiyyəti başçısının elektron poçt ünvanına 24 məktub daxil olmuşdur. Daxil olunmuş müraciətlər icra olunaraq nəticənin müraciət edən şəxsə operativ surətdə çatdırılması təmin olunmuşdur.

Bunlarla yanaşı RİH-də yaradılan "qaynar xətt" daim nəzarətdə saxlanılmış, edilən müraciətlər sektorda təhlil olunmuş, verilən təklifin, sorğunun həlli istiqamətində görülən işlər barədə vətəndaşlara məlumat verilmişdir.

Rayon icra hakimiyyəti başçısının səyyar görüş-qəbullarına müvafiq idarə, təşkilat və müəssisələrin rəhbərləri dəvət edilir, görüş-qəbulun tarixi, vaxtı və yeri haqqında hər ayın əvvəlində müntəzəm olaraq "Qəbələ" qəzetində, həmçinin RİH-nin rəsmi internet səhifəsində ətraflı məlumatlar öz əksini tapır.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) tərəfindən aprelin 6-da Ağ Ev Administrasiyasının internet resursunda yerləşdirilən "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiyada rayon ictimaiyyətinin fəal iştirakı təmin olunmuşdur. Bununla bağlı rayon icra hakimiyyətində inzibati ərazi nümayəndələri, idarə, müəssisə və təşkilat rəhbərləri üçün seminar keçirilmişdir. Seminarda petisiyada iştirak etməyin qaydaları izah olunmuş, iştirakçılara maarifləndirici materiallar paylanılmışdır.

Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin elektron reyestrinin yaradılması ilə bağlı Qəbələ Rayon İcra Hakimiyyəti tərtib olunmuş 41 informasiya ehtiyatları barədə elektron məlumatları hazırlayaraq Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə göndərmiş, həmçinin (www.qebele-ih.gov.az) saytda yerləşdirilməsini təmin etmişdir.

Sektor informasiya sistemləri və ehtiyatlarının "ASAN ödəniş" sistemınə qoşulması üçün <https://www.asanpay.az/> portalında qeydiyyatdan keçmiş, bu istiqamətdə zəruri olan loqin və parolu əldə etmişdir. Qeyd olunan portalda inzibati cərimə, tənbeh tətbiq etmə haqqında qərarların, yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar inzibati xəta haqqında protokolların, foto və ya video görüntülərinin real vaxt rejimində "ASAN ödəniş" sistemınə ötürülməsi, fasiləsiz və təhlükəsiz fəaliyyətin təmin olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Bələdiyyələrin avtomatlaşdırılmış məlumat sistemınə qoşulması üçün onlara seminar-treninq təşkil edilmişdir. Rayonun 29 bələdiyyəsinə bu sistemdə işləmək üçün lazımı təlimat və hər biri üçün ayrılıqda loqin və parol təqdim olunmuşdur.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyaları, rayon icra hakimiyyətinin fəaliyyətinə dair hesabatları, rayonun sosial-iqtisadi inkişafına dair göstəriciləri əks etdirən məlumat bazası dövrülük müddətlərinə uyğun yenilənmiş şəkildə rayon icra hakimiyyətinin rəsmi internet saytında Azərbaycan, rus və ingilis dillərində (qebele-ih.gov.az) yerləşdirilmişdir. Bütün bunlarla yanaşı keçirilən tədbirlər barədə olan informasiyaların sosial şəbəkələrdə (facebook, twitter) yayımlanması, şəbəkə auditoriyasının marağına səbəb olmuş, nəticədə xəbər izləyicilərinin sayı artmışdır.

2016-cı il ərzində rayonda keçirilən tədbirləri təhlil edərkən müəyyən olunmuşdur ki, ötən dövr ərzində ümumilikdə 240 xəbər başlıqlı informasiya rayon icra hakimiyyətinin saytında öz əksini tapmışdır. O cümlədən mədəniyyət, turizm və digər ictimai-siyasi tədbirlərlə bağlı 84 tədbir (35%), idman, gənclər siyasəti ilə bağlı 43 tədbir (17,9 %), sosial-iqtisadi məsələlərlə bağlı 52 tədbir (21,6%), tanışlıq məqsədi ilə rayona səfər edən nümayəndələrlə bağlı 17 tədbir (7,1%), hüquq mühafizə üzrə 12 tədbir (5%), səhiyyə üzrə 13 tədbir (5,4%), təhsil sahəsi üzrə 9 tədbir (3,80) və kənd təsərrüfatı sahələri üzrə 10 tədbir (4,2 %) həyata keçirilmişdir.

Sektor tərəfindən təsisçisi rayon icra hakimiyyəti olan "Qəbələ" qəzetinin rayon icra hakimiyyətinin rəsmi internet saytında yerləşdirilməsi daim nəzarətdə saxlanılmış, hər ay müntəzəm olaraq qəzetin nömrələri elektron formatda oxuyuculara təqdim olunmuşdur. Bütün bunların nəticəsində hər bir vətəndaş saytda "Qəbələ" qəzetinin bütün tirajını izləyə bilməklə yanaşı rayonun ictimai siyasi həyatında baş verən informasiyalar haqqında ətraflı məlumat almaq imkanına malik olmuşdur.

İnformasiya sisteminin təkmilləşdirilməsi istiqamətində İKT texnologiyalarından geniş istifadə olunmuş, Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyası ilə rayon icra hakimiyyəti başçısı aparatı arasında video bağlantı, həmçinin RİH ilə rayonun 10 yaşayış məntəqəsinin operativ idarəetmə mərkəzinə qoşulması təmin olunmuşdur.

✍ **Zahir KƏRIMOV,**
**RİH-nin informasiya təminatı və təhlil sektorunun müdiri.**

# 2016-cı il ərzində Qəbələ rayonunun sosial-iqtisadi inkişafı

*Ölkənin bütün bölgələrində olduğu kimi, 2016-ci il Qəbələ rayonunun iqtisadiyyatında və sosial-mədəni həyatında nəzərəçarpacaq müvəffəqiyyətlər əldə edilmiş, iqtisadiyyatın bütün sahələrində istehsalın həcmi artmış, təsərrüfat və sosial obyektlər istifadəyə verilmiş, yeni iş yerləri açılmışdır.*

**Ərazi və əhali**

Rayonun ərazisi 1548 kv km-dir. 1 yanvar 2017-cü il tarixə mövcud əhalinin sayı 104419 nəfər olmuşdur. Əhalinin sıxlığı hər kv. kilometrdə 66.0 nəfərdir.

Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd vardır. Eləcə də idarəetmənin həyata keçirilməsi ilə bağlı 1 şəhər, 3 qəsəbə, 56 kənd inzibati ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir. Rayon əhalisinin 13773 nəfəri yaxud 13,2 faizi şəhər, 21729 nəfəri yaxud 20,9 faizi qəsəbə, qalan 68917 nəfəri yaxud 65,9 faizi kənd yerlərində yaşayır.

Rayondakı 690 məcburi köçkün ailəsində 2350 nəfər yaşayır.

2016-cı il ərzində Qəbələ rayonunda 1798 körpə doğulmuş, 563 nəfər vəfat etmişdir. Vəfat edənlərin 4 nəfəri 1 yaşa qədər uşaqlar olmuşdur.

2016-cı ildə Qəbələ rayonunda 819 nikah və 88 boşanma qeydə alınmışdır, Keçən ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 103 nəfər , boşananlar isə 6 nəfər artmışdır.

**İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə məhsul buraxılışı**

2016-cı il ərzində Qəbələ rayonunda iqtisadiyyatın əsas sahələri üzrə məhsul istehsalı və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən 16,2 faiz artaraq 236604 min manata çatmış,onun adambaşına həcmi isə 2266 manat təşkil etmişdir.

Məhsul və xidmətlərin 79,5 faizi istehsal sahələrinin, 20,5 faizi isə xidmət sahələrinin payına düşmüşdür. O cümlədən 33,2 faizi tikintidə, 11,6 faizi ticarət və xidmətlər sahəsində, 10,9 faizi sənayedə, 42,2 faizi kənd təsərrüfatında, 1,7 faizi nəqliyyatda, 0,4 faizi isə informasiya və rabitə xidmətləri sahəsində olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sənayedə 12,9 faiz , kənd təsərrüfatında 63,1 faiz, ticarət və xidmət sahəsində 1,8 faiz , nəqliyyatda 1,6 faiz artım, informasiya və rabitədə 0,8 faiz, tikintidə isə 10,3 faiz azalma müşahidə edilmişdir.

**Kənd təsərrüfatı**

Keçən il rayonda 22462 hektar sahədə payızlıq taxıl əkilmiş, 70874 ton taxıl, 12648 ton kartof, 17928 ton tərəvəz, 12531 ton meyvə, 3971 ton qarğıdalı, 58 ton günəbaxan, 609 ton bostan bitkiləri, 11 ton tütün və 1179 ton üzüm istehsal olunmuşdur.

Eləcə də diri çəkidə 6332 ton ət, 38856 ton süd, 10401 min ədəd yumurta, 463 ton yun istehsal olunmuşdur. 2015-cü ilə nisbətən ət istehsalı 1057 ton və ya 14.3 faiz, yun istehsalı 24.2 ton və ya 4.9 faiz az, yumurta istehsalı 5 min ədəd və ya 0.04 faiz, süd istehsalı isə 2265 ton və ya 6.2 faiz artmışdır.

**S ə n a y e**

2016-cı ildə rayonda sənaye sahəsində 25936 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 12,9 faiz çox məhsul istehsal edilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri - dövlət bölməsinin xüsusi çəkisi 79,5 faiz təşkil etmişdir.

Həmçinin il ərzində rayonda 18173 min manatlıq qida məhsulları emal edilmişdir. Sənaye xarakterli məhsul istehsalı 20629 min manat, sənaye xarakterli xidmətlər 5307 min manat təşkil etmişdir.

**Tikinti**

2017-ci ilin 1 yanvar vəziyyətinə rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 80016,4 min manat, (63446,4 min manatı dövlət mülkiyyəti,16020,0 min manatı isə qeyri-dövlət mülkiyyəti) tikinti quraşdırma işlərinin həcmi isə 78607,6 min manat (63388,6 min manatı dövlət mülkiyyəti, 15219,0 min manatı qeyri-dövlət mülkiyyəti ) təşkil etmişdir.

İl ərzində ümumi sahəsi 33042 kv metr olan 296 fərdi ev tikilmiş, 29353 min manatlıq əsas fondlar istifadəyə verilmişdir. Bunun 13333 min manatını dövlət, 16020 min manatını isə qeyri-dövlət mülkiyyəti təşkil etmişdir.

**Mədəniyyət və turizm**

2017-cü ilin 1 yanvar vəziyyətinə rayonda 1 mədəniyyət mərkəzi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub müəssisəsi, 1 incəsənət məktəbi, 4 mədəniyyət və istirahət parkı, 3 muzey, fəaliyyət göstərmişdir. 61-i dövlət əhəmiyyətli olmaqla 93 mədəniyyət abidəsi və 1 tarix mədəniyyət qoruğu mühafizə olunur.

**T ə h s i l**

Rayonda 4 ibtidai, 11-əsas və 53 tam orta məktəb fəaliyyət göstərir. Hazırda 68 məktəbdə 16998 nəfər şagird təhsil alır. Şagirdlərin təlim tərbiyyəsi ilə 2620 müəllim məşğul olur. Məktəblərdə 485 kompüterdən istifadə edilir.

Qəbələ Peşə Məktəbində isə 408 nəfər gənc 8 ixtisas üzrə təhsil alır.

**S ə h i y y ə**

Bu gün rayonda 51 tibb müəssisəsi-- 330 çarpayısı olan 6 xəstəxana, 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator poliklinika fəaliyyət göstərir.

Həmin müəssisələrdə 178 həkim, 461 orta tibb işçisi çalışır. Rayonda əhalinin hər 10000 nəfərinə 18,8 həkim, 48,6 nəfər tibb işçisi düşür.

**Nəqliyyat və rabitə**

2017-ci ilin 1 yanvar vəziyyətinə avtomobil nəqliyyatı ilə 1217 min ton, əvvəlki illə müqayisədə 56 min və ya 4,7 faiz çox yük daşınmışdır.

İl ərzində rayonda 8535 min sərnişin daşınmış, bu da keçən illə müqayisədə 6,1 faiz və ya 491 min sərnişin çox deməkdir.

Rayonun rabitə müəssisəsi tərəfindən 1049,4 min manatlıq rabitə xidməti göstərilmişdir.

**Əmək haqqı, məşğulluq və işsizlik**

Ötən il rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 278 manat təşkil etmiş və 2015-ci ilin həmin dövrünə nisbətən 1,7 faiz azalmışdır.

Yüksək orta aylıq əmək haqqı rayon iqtisadiyyatının elektrik enerjisi və qaz istismarında, rabitə, maliyyə, dövlət idarəetməsi, sosial təminat, təhsil sahələrində çalışan işçilərə məxsus olmuşdur.

2016-cı il ərzində müəssisə və təşkilatlarda işçilərə 4345 manatlıq sosial xarakterli ödəmələr verilmişdir. Müəssisə və təşkilatlarda çalışan mülki hüquqi xarakterli müqavilələr üzrə işçilərin orta aylıq əmək haqqı 207 manat olmuşdur.

**Yeni açılmış iş yerlərinin sayı**

2003-cü ilin oktyabr ayının 1-dən 2017-ci il yanvar ayının 1-nədək rayonda 15065 yeni iş yeri açılmışdır ki, onun da 13266 daimi iş yerləridir.

**Əhalinin sosial müdafiəsi**

2016-cı ildə rayonda 11621 pensiya işi üzrə 11909 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Onlardan 7915 nəfər yaşa görə, 2936 nəfər əlliliyə görə 770 ailə üzrə 1058 nəfər isə ailə başçısını itirməsinə görə pensiya almışdır. Pensiyaçılara təyin olunmuş aylıq ümumi pensiya məbləği 1930.1 min manat, bir pensiya işi üzrə orta aylıq pensiya məbləği 166.09 manat təşkil etmişdir.

2016-cı il ərzində Qəbələ rayonu üzrə 4633 ailənin 4982 üzvünə 3569,1 min manat sosial müavinət, 988 ailənin 4544 ailə üzvünə 2012,7 min manat ünvanlı sosial yardım ödənilmişdir.

✍ **Ayaz İSKƏNDƏROV,**
**rayon statistika idarəsinin rəisi.**

# Yeni kitablar

*Bir kitab bir toxum, toxum ağac, ağac isə saysız hesabsız meyvələrdir. Elə bir kitab*



*yoxdur ki, insanlar ondan yaxşı sey öyrənə bilməsin. Yaxşı kitab cox qiymətli xəzinədir. Kitab insanin ilk dostudur. Həyatın ən uzaq və qaranlıq yollarında insana işıq bəxş edən nurlu çıraqdır. Yaxşı kitablar oxumaq keçmiş əsrlərin ağıllı adamları ilə söhbət etmək deməkdir.*

Bu baxımdan rayon mərkəzləşdirilmiş kitabxana sisteminə daxil olan yeni kitablar çox maraqlıdır. Həmin kitabların sırasında ötən əsrin 50-60-cı illərində bütün elm sahələrinə dair çap olunmuş kitabların yeni nəşrləri böyük əhəmiyyətə malikdir.

Həmçinin Mir Cəlal Paşayevin iki cildliyi, İlyas Əfəndiyevin yaradıcılığına dair biblioqrafik materiallar, Tofiq Bayramın «Azərbaycanım», Çingiz Əlioğlunun «Əmrahsız günlər», Əli Tudənin və digər görkəmli nasir və şairlərin əsərləri belə nəşrlərdəndir.

✍ **Sevil ƏMƏDOVA,**
**rayon mərkəzi kitabxanasının şöbə müdiri.**